**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNIVERSITETI**

**Magistratura pilləsi üçün**

**İXTISAS: 060112 - COĞRAFIYA MÜƏLLIMLIYI**

# İF-M 10468 "COGRAFİYANIN TƏDRİSİNİN PEDAQOJİ –PSİXOLOJİ ƏSASLARI"

**fənninin**

# P R O Q R A M I

**Bakı Dövlət Universiteti TMŞ yanında Tədris vəsaitlərinə nəşr hüququnun (qrif) verilməsi üzrə daimi fəaliyyət göstərən Komissiyanın qərarı ilə təsdiq edilmişdir ( protokol № )**

**Bakı 2016**

## COGRAFİYANIN TƏDRİSİNİN PEDAQOJİ –PSİXOLOJİ ƏSASLARI

### İzahat vərəqi

« Coğrafiyanın tədrisinin pedaqoji-psixoloji əsasları” fənni “Coğrafiya müəllimliyi” istiqaməti «Coğrafiyanın tədrisi metodikası və metodologiyası» ixtisası üzrə magistratura pilləsində I kursun II semestrində 45 saat (30 saat – mühazirə, 15-laboratotiya işi ) həcmində tədris edilir.

«Coğrafiyanın tədrisinin pedaqoji-psixoloji əsasları” kursunun tədris edilməsinin sonunda

***Bilməlidir:***

- təlim prosesinin elmi -nəzəri əsaslarının mahiyyətini izah etməyi;
-öyrənmə prosesinin təbii-elmi və psixoloji əsaslarını təhlil etməyi;
-fəal təlimin zamanın tələbi olduğunu əsaslandırmağı;
-təlim prosesinin təşkilinin psixoloji prinsiplərini təhlil etməyi;
- Pedaqoji – pisxoloji əsasların tədqiqat metodları və onların səciyyəsini verməyi.

***Bacarmalıdır:***

- pedaqoji prinsiplərin mahiyyəti izah etməyi;
- təlimin fəlsəfi əsasını təhlil etməyi;
- təlim-tərbiyə sisteminin çevikliyi və qabaqlayıcı təlim prinsipinə əməl etməyi;
- təlimdə şüurluluq, fəallıq, müstəqillik və fərdi yanaşma prinsipinə əməl etməyi;
- təlimdə əyanilik, optimal təşkil və müvafiqlik prinsipini təhlil etməyi;
- bilik bə bacarıqların möhkəmləndirilməsi prinsipini tətbiq etməyi.

***Yiyələnməlidir:***

- təlim prosesinin əsaslarını təhlil etməyə;
- ali məktəb təlimində mövcud olan prinsiplərə;

Proqram həmdə magistr dissertasiyası üzərində müstəqil tədqiqatlar aparılmasında yardımçı vasitə rolunu oynaya bilər.

### Mövzülar üzrə saatların paylanması

| № | Mövzular | cəmi | o cümlədən | |
|---|---|---|---|---|
| | | | müh | sem |
| 1. | Təlim prosesinin elmi-nəzəri əsasları | 2 | 2 | |
| 2. | Öyrənmə prosesinin təbii-elmi və psixoloji əsasları. Təlimin psixoloji əsasları | 4 | 2 | 2 |
| 3 | Pedaqoji – pisxoloji əsasların tədqiqat metodları və onların səciyyəsi | 2 | 2 | |
| 4 | Təlimin fəlsəfi əsası | 4 | 2 | 2 |
| 5 | Pedaqoji prinsiplərin mahiyyəti | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| 6 | Fəal idrak və inkişafetdirici təlim prinsipi | 4 | 2 | 2 |
| 7 | Təlim-tərbiyə sisteminin çevikliyivə qabaqlayıcı təlim prinsipi | 2 | 2 | |
| 8 | Təlim üçün zəruri şəraitin yaradılması və əməkdaşlıq prinsipi | 4 | 2 | 2 |
| 9 | Bilik bə bacarıqların möhkəmləndirilməsi prinsipi | 2 | 2 | |
| 10 | Təlimin həyatla əlaqələndirilməsi prinsipi | 4 | 2 | 2 |
| 11 | Təlimdə elmilik prinsipi | 2 | 2 | |
| 12 | Təlimdə sistematiklik və ardıcıllıq prinsipi. | 4 | 2 | 2 |
| 13 | Təlimdə şüurluluq, fəallıq, müstəqillik və fərdi yanaşma prinsipi | 2 | 2 | |
| 14 | Təlimdə əyanilik, optimal təşkil və müvafiqlik prinsipi | 4 | 2 | 2 |
| 15 | Ali məktəb təlimində prinsiplər | 3 | 2 | 1 |
| | Cəmi: | 45 | 30 | 15 |

**1.Təlim prosesinin elmi- nəzəri əsasları** – Təlim prosesinin nəzəri (metodoloji) əsasını fəlsəfənin *idrak nəzəriyyəsi* təşkil etməsi. İdrak dünyanın insan şüurunda əks olunmasının mürəkkəb prosesi kimi. Elmi idrakın pillələrinin sxematik təsviri: İdrak yolu: canlı müşahidə → mücərrəd təfəkkür → praktika. Təlim prosesinin idrak fəaliyyətinin bir növü olması. Öyrənmə yolunun idrak yoluna əsaslanması:təlim yolu: qavrama → anlama → möhkəmlətmə → tətbiqetmə. Şagirdin (tələbənin) öyrənmə yolunun idrak yoluna müvafiq olması: qavrama idrak yolundakı canlı müşahidə ilə, anlama - mücərrəd təfəkkürlə, tətbiqetmə isə praktika ilə bağlı olması (1),(2),(5),(6),(7).

**2.Öyrənmə prosesinin təbii-elmi və psixoloji əsasları. Təlimin psixoloji əsasları.** Öyrənmə prosesinin təbii-elmi əsasının *ali sinir fəaliyyəti haqqında təlim* təşkil etməsi. Təlimdə şagirdin öyrənmə yolunun *qavrama, anlama, möhkəmlətmə və tətbiqetmə* proseslərindən keçməsi. *Qavramanın* təlim prosesində əşya və hadisələr haqqında, onların əlamət və xüsusiyyətləri ilə bağlı şagirdlərin məlumat əldə etməsi.*Anlamanın* mənimsəmənin əsas şərt olması. Anlamanın təfəkkürlə müşayiət olunması. Anlayışın dolğun və tam formalaşması üçün şagirdlərin təfəkkür əməliyyatları aparmağa (təhlil-tərkib, müqayisə, ümumiləşdirmə, nəticə çıxarmaq və s.) cəlb etməsi. *Möhkəmlətmənin* mənimsəmənin zəruri ünsürlərindən biri olması. Möhkəmləndirmənin qazanılmış biliklərin hafizədə uzun müddət saxlanması və daha da dərinləşməsini təmin etməsi. *Tətbiqetmə* təlimin çox mühüm ünsürü kimi. Nəzəri biliyi həyata, çalışmalara tətbiq etmək bacarıqlarının aşılanması. Təlim fəaliyyətinın şagirdin müəllim tərəfindən istiqamətləndirilən fəal, müstəqil fəaliyyətidir. Təlim fəaliyyətinin dörd başlıca komponenti : təlimin məqsədi və vəzifələri, təlim əməliyyatları, özünənəzarət və

özünüqiymətləndirmə. Təlim fəaliyyəti komponentlərinin bir-biri ilə şərtlənən müəyyən sistem təşkil etməsi

Hafizə və təfəkkürünarasındakı asılılıq. Şagirdin inkişafı ilə təlim prosesi arasındakı qarşılıqlı təsir. Biliyin və fəaliyyət üsullarının mənimsənilməsinin mexanizmi və qanunauyğunluqları. Alqoritmik və evristik fəaliyətlərin təbiəti.A.Bine, A.Ştern, İ.Piaje və başqalarının tədqiqatları. Y.A.Pestalotsinin təlimdə şagirdlərin yaş xüsusiyyətinin aparıcı fakt olması təlimi. Təfəkkürün daxili və xarici şərtləri.Təfəkkürün əsas funksiyasının-yeni biliklər və yeni fəaliyyət üsullarını əldə etmək qabiliyyətlərinin formalaşması olması. Təlimin inkişafetdiricilik funksiyası konsepsiyaları (1),(2),(3),(4),(5).

**3. Pedaqoji-pisxoloji əsasların tədqiqat metodları və onların səciyyəsi.** Təbii elmi yanaşma. Humanitar yanaşma. Tədqiqat strategiyaları. Pedoqoji psixologiyanın əsaslarının öyrənilməsinin tədqiqat metodları. Müşahidə metodunun səciyyəsi. İnterperetasiyanın mahiyyəti. Anlama metodu. Dialoq metodu. Refleksiya metodunun səciyyəsi. Problemin həlli metodu. Özünü müşahidənin mahiyyəti. Təcrübələrin aparılması. Fəaliyyətin nəticəsi metodu. Rəsm texnikası metodu. Sorğu metodu. Sosial əlaqələr metodu. Bioqrafik metod. Riyazi metod. Pisxoloji kömək metodunun mahiyyəti (1),(2),(3),(6),(7).

**4.Təlimin fəlsəfi əsası**. Təhsil fəlsəfəsinin mahiyyəti.Təhsil fəlsəfəsi və təlim-tədrisin təşkilində onun rolu. Təhsilin məqsədi. Təhsilverən və təhsilalanın rolu. Təhsilə dair fəlsəfi baxışlar. Essesnsializm, perenializm, ekstensializm, proqressivizm fəlsəfəsinin izahı (3),(4),(5),(6),(7).

**5.Pedaqoji prinsiplərin mahiyyəti.** Təhsil sistemində prinsiplərin tarixən dəyişməsi. Azərbaycanda təhsil islahatının əsas prinsipləri: demokratikləşmə, humanistləşdirmə, differensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya, humanitarlaşdırma. V.A.Slasteninin təlim prinsiplərinə verdiyi təsnifat: elmilik; tərbiyəedici təlim; təlimin tətbiqi; təlimin ardıcıllığı və sistemliyi; təlimdə fərdi yanaşma; təlimdə yaşauyğunluq; təlimdə yaradıcı inkişafın təmin edilməsi; təlimin çətinlik dərəcəsinin nəzərə alınması; əyanilik; mürəkkəblik dərəcəsindən asılı olaraq mövzunun imkana uyğunlaşdırılması. L.S.Vıqotskinin inkişafetdirici prinsip nəzəriyyəsi. (1),(2), (7).

**6.Fəal idrak və inkişafetdirici prinsipinın mahiyyəti**. Tədris prosesinin təşkil olunmasında idrak fəallığının, təbii öyrənmə fəaliyyətinin yaratması, şagirdə "ilk kəşf" sevincinin yaradılması və yeni biliklərə yiyələnmək həvəsinin yaratması

Fəal idrak inkişafetdirici təlim prinsipinin əsası kimi.Təlimin tərbiyə vasitəsi olması. Təlimin təhsilverici, tərbiyəedici və inkişafetdirici prinsipinin əsas istiqamətləri: şagirdlərdə elmi dünyagörüş və ideya inamı formalaşdırmaq; yüksək mənəvi keyfiyyətlərin (vətənpərvərlik, humanizm, xeyirxahlıq, düzlük, doğruçuluq və b.) aşılanması; təlim prosesində şagirdlərdə nəcib hisslərin (yoldaşlıq, dostluq, milli iftixar, borc və məsuliyyət hissi və s.) formalaşdırılması; şəxsiyyətin psixi proseslərini, zehni qabiliyyətlərini inkişaf etdirilməsi. Fəal idrak prosesində öyrənməyi öyrətmək. K.Uşinsikinin öyrənməyi-öyrətmək prinsipi. Şəxsiyyətə yönəlmiş prinsipin mahiyyəti. Şagirdyönümlülük, şəxsiyyətə yönəlmiş prinsipin mahiyyəti şagirdin təlim prosesinin mərkəzi obyekti kimi çıxış etməsi. Təlimin uşağın imkan və qabiliyyətlərinə, onun biliyinə, maraq və tələbatlarına yönəlməsi. Şəxsiyyətyönümlü təhsildə konstruktivizm nəzəriyyəsi. A. M. Kanının fikirləri. Müəllim və şagird münasibətlərinin yeni müstəvisi. Konstruktivizm nəzəriyyəsinin prinsipləri: İnkişafetdirici, təhsilləndirici, tərbiyələndirici. Şagirdin təlim prosesinin mərkəzi obyekti kimi çıxış etməsi. təlimin uşağın imkan və qabiliyyətlərinə, onun biliyinə, maraq və tələbatlarına yönəlməsi (4),(5),(6),(7).

**7. Təlim-tərbiyə sisteminin çevikliyi və qabaqlayıcı təlim prinsipi**. Təlimin inkişafı qabaqlaması, uşağın "qarşıdakı (yaxın) inkişaf zonasına" yönəldilməsi, təlimin uşağın müstəqil fəaliyyəti və ya böyüklərin köməyi sayəsində aşkarlanan bilik və bacarıqları əldə etmək potensial imkanlarına tuşlanması "Qabaqlayıcı təlim" pinsipinin mahiyyəti: təlimin cəmiyyətin inkişaf təmayüllərini əks etdirməsi, yeni nəsillərə yaxın gələcəkdə təşəkkül tapacaq dünyada fəaliyyətə hazırlandırılması.Təlim-tərbiyə sisteminin çevikliyi prinsipi**:** İctimai mühitin və şagirdlərin dəyişən tələblərinin nəzərə alınmaqla, təlim proqramlarının məzmununun, tədris planlarının qurulmasının, təlim-tərbiyə prosesinin təşkilinin, pedaqoji texnologiyaların seçilməsinin sistematik təzələnməsi. B.A.Suxamlinskinin şagird fəallığının artırılması haqqında fikirləri (1),(2),(3).
**8. Təlim üçün zəruri şəraitin yaradılması və əməkdaşlıq prinsipi.** Əməkdaşlıq, kollektivçilik və dialoji təlim prinsipi: "müəllim- şagird -valideyn " qarşılıqlı münasibətləri sistemində onların hər birinin təlim prosesi gedişində tərəf-müqabili kimi iştirak etməsı. Qrup işinin təşkili. Kollektivçilik prinsipinin əsası kimi. Dialoji təlim prinsipinin mahiyyəti. Dialoji təlim prinsipi: məsələlərin birgə həlli gedişində özünün və qrup üzvlərinin fikirlərini, imkanlarını və təcrübələrini müəyyən edə bilməsi və faydalanması. Şagirdlərin müzakirələrdə və qrupun işində iştirakı. Təlim üçün zəruri şəraitin yaradılması prinsipi və normal şəraitdə cərəyan edən təlimin yüksək nəticə əldə etməsində rolu(1),(5),(6),(7).
**9. Bilik və bacarıqların möhkəmləndirilməsi prinsipi**. Bilik və bacarıqların möhkəmliyi təlim prosesinin üç amili: biliklərin ilkin mənimsədilməsinin düzgün təşkili, bu zaman əyanilik, fəallıq və şüurluluğun təmin edilməsi: nəzəri biliklərin həyata və çalışmalara tətbiqi: biliklərin təkrarının möhkəmlətmə vasitəsi olması. Mövzuların öyrənilməsinin əvvəlki biliklərlə əlaqələndirilməsi, yeni keçilən və əvvəlki qaydaları birlikdə tətbiq etməklə təkrar və möhkəmlətməyə edilən kömək. Təkrarın təfəkkürə istinad edilməsi, yaradıcı müstəqil işlərə üstünlük verilməsi. A.A.Smirnovun biliklərin möhkəmləndirilməsi prinsipi barədə fikirləri (1),(5),(6),(7).
**10. Təlimin həyatla əlaqələndirilməsi prinsipi-** Q.İ.Suxinanın tədqiqatlarında biliklərin həyatla əlaqələndirilməsi prinsipi. Məktəbin insanı həyata hazırlaması Təlimin həyatla və əməklə əlaqələndirilməsinin təlimə, və əməyə şüurlu xarakter verməsi və fənnə marağı artırması.
Prinsipintəlimin məzmununun həyatla, cəmiyyət quruculuğu təcrübəsi ilə əlaqələndirilməsi;
- öyrənilən biliyin şagirdlərin şəxsi təcrübəsi və müşahidələri ilə oyun və digər fəaliyyət növləri ilə əlaqələndirilməsi; nəzəri biliklərin müxtəlif növ praktik işlərə tətbiq edilməsi, təlimin əmək və istehsalatla əlaqələndirilməsi. B.Paşayevin, D.Ələsgərovun və F.Rüstəmovun praktik bacarıqların formalaşdırılması prinsipləri barədə fikirləri (3),(4),(5),(6),(7).

**11.Təlimdə elmilik prinsipi** Elmilik prinsipinin təlimdə şagirdləri elmi biliklərlə, elmi dünyagörüşü ilə silahlandırması. Elmilik prinsipinin zehni qüvvə və qabiliyyətləri inkişaf etdirməkdə, təbiət və cəmiyyət hadisələrinə elmi baxışlar aşılamaqda, elmi biliklərə maraq və tələbat yaratmaqda rolu. S.İ.Arxangelskiyə görə, elmilik prinsipinin mahiyyəti: Tədris fənninə daxil edilən hər hansı yeni məzmunun elmi xarakteri, müntəzəm şəkildə toplanılan elmi potensial ilə elmi proqnoz arasındakı əlaqə; elmi meyarlar, səviyyə, ölçü, anlayışın dəyişmə forması öyrənilən fənnin elmi məzmununun metodoloji qiyməti. Elmilik prinsipində inteqrasiyanın rolu. N.F.Talızinin inteqrasiya haqqında fikirləri (1),(2),(3),(4).

**12.Təlimdə sistematiklik və ardıcıllıq prinsipi**. Prinsipin təlimdə elmin sistemini mühafizə etməsi, bilik və bacarıqların mənimsənilməsində ardıcıllığın gözlənilməsi. Biliklərin ciddi sistemdə öyrətmək tələbi. Təlimdə stematiklik prinsipinin əsas cəhətləri - təhsilin məzmununun ciddi sistemdə qurulması; bilik və bacarıqların ciddi sistemdə, məntiqi ardıcıllıqda təqdim olunması. Fərdi sosial, mənəvi sistemlilik (1),(2),(5),(6),(7).

**13.Təlimdə şüurluluq, fəallıq, müstəqillik və fərdi yanaşma prinsipi.** Təlimdə şüurluluq, fəallıq və müstəqillik prinsipinin təlim prosesində şagirdlərin fəaliyyəti, mənimsəmənin xarakteri, onların təlimə münasibətini əks etdirməsi. Təlimdə şüurluluğun fəallıq formalizmə, əzbərçiliyə qarşı mübarizədə böyük əhəmiyyəti. Şüurluluğun fəallıqla əlaqəsi. təlimə şüurlu yanaşan şagirdin rolu. Fəallığın qarşıda duran təlim vəzifələrinin uğurlu icrası üçün şagirdin səy göstərməsində ifadə olunması. Fəallığın daxili (zehni) və zahiri (əməli) cəhətləri. Təlimdə fərdi yanaşma prinsipi. Fərdi yanaşmanın vacibliyin şagirdlərin qüvvə və imkanlarının eyni olmaması ilə əlaqələndirilməsi. L.S.Viqotskinin fəallıq prinsipi ilə bağlı fikirləri (1),(2).

**14.Təlimdə əyanilik, optimal təşkil və müvafiqlik prinsipi** Təlimdə əyanilik prinsipinin qavranılan konkret şeylər və hadisələr üzərində qurulması tələbi. Əyanilik prinsipinın idrak prosesinin öz təbiətindən irəli gəlməsi: idrak prosesinin canlı müşahidədən - fakt və hadisələrin qavranmasından başlanması. Əyanilik prinsiplərinin əsaslandırılmasında Y. A. Komenskinin əyaniliyə verdiyi «qızıl qayda». Əyanilikdən dərsin müxtəlif mərhələlərində istifadə olunması. Təlimdə optimal təşkil prinsipinin mahiyyəti. Müvafiqlik prinsipinin əsas qaydaları: a)asandan çətinə; b)məlumdan məchula (məchulu məlum əsasında öyrətmək); c)ümumidən xüsusiyə (obyekt haqqında ümumi təsəvvür verdikdən sonra onun xüsusi hallarına keçmək); ç)sadədən mürəkkəbə (sadə məsələlərdən tədricən mürəkkəbə keçmək). Müvafiqlik prinsipinin təlimin təşkilinə verdiyi bir sıra tələblər. Müəllim şagirdlərin yaş və anlama xüsusiyyətlərindən çıxış edərək materialın həcmini, çətinlik dərəcəsini, təlimin vasitə və metodlarını tənzim etməsi. Ə.Əlizadənin mənimsəmə problemində müvafiqlik prinsipinin rolu na dair fikirləri (1),(2),(3).

**15. Ali məktəb təlimində prinsiplər - T**əlim fəaliyyətinin şəxsi məna kəsb etməsi. Təlim informasiyasının peşə-ixtisas əhəmiyyətinin dərk edilməsi. Ali təhsil pillələrinin mahiyyəti. Təhsilin humanist xarakteri. Şəxsiyyətin azad inkişafın ın üstün tutulması. Təhsil sistemində vahidlik və varislik. Dünyəvilik prinsipi. Təhsilin demokratikləşdirilməsi və dövlət-ictimai xarakter daşıması. Təhsilin fərdiləşdirilməsi və diferensiallaşdırılması. Distant təhsil və onun mahiyyəti (3),(4),(5),(6),(7).

## Ədəbiyyat

**Əsas**

1. Veysova Z. A. Fənn müəllimləri üçün ixtisasartırma təhsilinin 2-ci modulu üzrə "Ümummi orta təhsil səviyyəsi üçün yeni fənn kurikulumlarının tətbiqi Coğrafiya fənni üzrə təlimçilər üçün vəsait "İnkişaf" elmi mərkəzi, 2014, 168 s.
2. Süleymanova A.Y, Təhsilin əsasları, Dərs vəsaiti Bakı "Təhsil" nəşriyyatı , 2014, 399 s.
3.Alxasov O.K. Coğrafiyanın tədrisi metodikası. Ali məktəb üçün dərslik , Bakı 2014
4. Seyfullayeva N.S. Coğrafiyanın tədrisi metodikası. Ali məktəb üçün dərslik ,Bakı, EMK nəşriyyatı. 2011. 489 s.

**Əlavə**

5. Cenni L.Stil, Kurtis S.Meredit və Çarliz Templ Düşünən oxucunun yetişdirilməsi. VIII kitab. Yeni nəsil. 2000. 46 s.

6. Cenni L.Stil, Kurtis S.Meredit və Çarliz Templ. Birgə təhsil.V kitab Bakı. Yeni nəsil 2000 32 s.
7. kurikulum az.